**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə**

**Norveç Krallığının Xarici İşlər Nazirliyi arasında**

# Əməkdaşlıq haqqında Protokol

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Norveç Krallığının Xarici İşlər Nazirliyi (sonradan «Tərəflər» adlandırılacaq) qarşılıqlı faydalı əməkdaşlıqlarını və bərabərhüquqlu münasibətlərini möhkəmləndirmək və genişləndirmək səylərindən çıxış edərək;

ikitərəfli münasibətlərin inkişafına, qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional əməkdaşlıq məsələlərinə dair müntəzəm məsləhətləşmələr və fikir mübadiləsi aparmaq arzularını vurğulayaraq,

aşağıdakılar haqda razılığa gəlirlər:

Maddə 1

Tərəflərin ikitərəfli münasibətləri inkişaf etdirmək, qlobal və regional təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədi ilə nazirlər səviyyəsində və digər səviyyələrdə müntəzəm danışıqlar və məsləhətləşmələr aparacaq.

Spesifik məsələlərə baxmaq üçün Tərəflərin razılığı ilə ekspert və işçi qrupları yaradıla bilər.

Maddə 2

Tərəflər danışıqların və məsləhətləşmələrin gündəliyini, vaxtını və keçirilmə yerini əvvəlcədən və qarşılıqlı razılıq əsasında müəyyən edəcəklər.

Maddə 3

Məsləhətləşmələr zamanı üstünlük təşkil edən məsələlər aşağıdakılardır:

1) siyasi, ticari, iqtisadi, mədəni, humanitar və digər sahələrdə ikitərəfli əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi;

2) iki dövlət arasında münasibətlərin hüquqi əsaslarının inkişaf etdirilməsi və təkmilləşdirilməsi;

3) Avropada və beynəlxalq aləmdə təhlükəsizliyin inkişaf etdirilməsi və əməkdaşlığın dərinləşdirilməsi məqsədi ilə beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı təmaslar;

4) müqavilə və sazişlərin yerinə yetirilməsinin gedişi haqqında informasiya mübadiləsi;

5) üçüncü ölkələrdə diplomatik və konsul nümayəndəlikləri səviyyəsində əməkdaşlıq.

Maddə 4

Tərəflər qarşılıqlı qaydada Azərbaycan Respublikasının və Norveç Krallığının parlamentlərinin, hökumətlərinin, nazirliklərinin və digər hökumət qurumlarının fəaliyyətləri haqqında informasiya mübadiləsi həyata keçirəcəklər.

Maddə 5

Tərəflərin razılığı ilə bu Protokola dəyişikliklər və əlavələr oluna bilər.

Maddə 6

Bu Protokol imzalandığı andan qüvvəyə minir və beş il müddətinə qüvvədədir. Bu müddətin bitməsindən sonra, Tərəflər arasında qarşılıqlı razılığa uyğun olaraq, Protokolun hüquqi qüvvəsi növbəti beş ilə uzadıla bilər.

2000-ci ilin fevral ayının 2-də Osloda hər biri Azərbaycan və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır və bütün mətnlər eyni autentikdir. Fikir ayrılığı meydana çıxdığı halda ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

**Azərbaycan Respublikasının xarici işlər naziri** **(imza)**

**Norveç Krallığının xarici işlər naziri** **(imza)**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2980-2981.**